## Görkəmli şəxslərin Çingiz  Əlioğlu haqqında söylədikləri

Çingiz Əlioğlunun yaradıcılığı çərçivənin çərçivəsizliyi və ya çərçivəsizliyin çərçivəsidir..

***Nizami Cəfərov,***
***Akademik***

Yenilik yenilməzdir. Çingiz poeziyasında yenilik gurultulu bəyanatlarla yox, bədii tapıntılarla təsdiq olunur. Çingiz Əlioğlunun şeirlərindən aldığım təəssüratı ən adi sözlərlə çatdırmaq istəyirəm. Təzəliyiylə, gözlənilməzliyiylə məni yaxşı mənada təəccübləndirən təşbehlərdən, qafiyələrdən, "söz oyunlarından" konkret örnəklər gətirməyə çalışacam.

Təyyarə marşrutlarının
göylərdə cızdığı
Tərsimi həndəsəsi -
tar simitək heç vaxt
kəsişməyən o paralel xətlər
göylər sakini mələklərin
yerdəkilərə hikmət dərsimi?

***

Ümumiyyətlə, öz nəsil şairləri içində Çingiz eksperimentçiliyindən başqa, sənətin başqa sahələrinə - musiqiyə, təsviri sənətə yaxınlığıyla seçilir. Vaqif Mustafazadənin xatirəsinə həsr etdiyi şeir, Pirosmani, Pikasso haqqında şeirləri bu qəbildəndir.

***Anar,***
***Xalq yazıçısı***

Çingiz heç kim üçün xəzan yarpağı çırpdıran adam deyildi.

***Elçin,***
***Xalq yazıçısı***

Çalışmağı, vuruşmağı nəticəsiz qalmamış, onlarla, yüzlərlə şeir çiçəkləri ilə bəzənmiş bir söz gülüstanı yaratmışdır.

***

Çingizin həyatının məntiqi mənasını, əsərlərinin əsas qayəsini, şeirlərinin ruhunu Azərbaycanın müstəqilliyini gücləndirmək, onun mənəvi cəhətdən enerjisini daha da artırmaq, millətin ruhunu dirçəltmək təşkil edir

***

Dilimizin alliterasiya imkanlarıdan, məncə, poeziyamızda heç kim Çingiz Əlioğlu qədər gen-bol və uğurlu istifadə etməyib.

***Sabir Rüstəmxanlı,***
***Xalq şairi***

Ustad Çingiz Əlioğlu dünya poeziyasını mükəmməl bilsə də, nəfəsi, ruhu həmişə milli, qədim poeziyamızın köklərinə bağlıdır. Onun poezyiası bizi dilimizin mistik mənalar dünyasına qaytarır.

***

Heç kimə sirr deyil ki, Çingiz Əlioğlunun dili səs simvolizmi deyilən fenomen ilə sıx bağlıdır. Bu poeziyanın özəlliyi mətnlərin akustik xarakterindən gəlir. Səs simvolizmi ayrı-ayrı səslərin, səs birləşmələrinin mistik mənalandırılması deməkdir.

***

Çingiz Əlioğlu şeirlərinin süjet təşkilində, folklorşünaslıq termini ilə desək, kumulyativ prinsip işləyir (Kumulyasiya mifopoetik təfəkkürün xüsusiyyətlərindən biridir, yəni öz aralarında əlaqəsi olmayan vahidlərin bir məna məkanında düzənlənməsidir).

***Rüstəm Kamal,***
***professor***

Çingiz Əlioğlu müasir Azərbaycan poeziyasının istedadlı nümayəndələrindən biridir və bu gün ona ən çox yaraşan söz İSTEDADdır.

***Vaqif Yusifli,***
***filologiya elmləri doktoru***

24 yaşlı Çingiz Əlioğlu sosrealizm tabularının qarşısına sürrealizmin azad ruhu və mistik röyaları ilə çıxır.

***Azər Turan,***
***Əməkdar mədəniyyət işçisi***

Çingiz Əlioğlu yaradıclığı həqiqi tədqiqata cəlb olunmalı irsdir.

***Sona Xəyal,***
***şairə, tədqiqatçıçı***

Sözünün sanbalı hər zaman diqqət çəkən, şəxsiyyəti və həyat kredosu xüsusi önəm daşıyan Çingiz Əlioğlunun şeirləri fikir yükündən yoğrulub. Onu oxuyanda hər misra fərqli bir fikir kimi səni düşünməyə məcbur edir.

***Əbülfət Mədətoğlı,***
***şair, publisist***

Məhsuldar yaradıcılığı ilə – şeir və poemalarıyla, ədəbi-publisistik yazılarıyla, analitik materiallarıyla, gözəl bədii-poetik tərcümələriylə, çoxsaylı kitabıyla, qəzet, jurnal və elektron informasiya vasitələrindəki ədəbi söhbətləriylə, naşirlik təcrübəsiylə, ictimai-dövlət fəaliyyəti, həmçinin ədəbi-mədəni işləriylə, ən əsası isə milli ədəbiyyatımıza gətirdiyi yenilikləriylə və gənc ədəbi qüvvələrə göstərdiyi qayğısıyla tanınan bu yaradıcı şəxsiyyət istər Azərbaycanda, istərsə də yaxın və uzaq xarici ölkələrdə nüfuzlu söz sahibi kimi çağdaş mədəniyyətimizi, ədəbi-bədii söz sənətimizi layiqincə təmsil edir.

***Aydın Xan Əbilov,***
***yazıçı, kulturoloq***

Öz üslubu, öz yolu olan qələm sahibi.

***Fariz Hüseynov,***
***jurnalist***